# MİDA-nın güzəştli mənzil sisteminə müdaxilə edənlər müəyyənləşdirilib

***Dünən Dövlət Təhlükəsizlik Xidməti və Mənzil İnşaatı Dövlət Agentliyi (MİDA) "Güzəştli mənzil" sistemi vasitəsilə bu il martın 30-da keçirilmiş mənzil seçimi mərhələsinin nəticələrinin ləğv olunmasına həsr edilmiş mətbuat konfransı keçiriblər. Tədbirdə MİDA-nın nümayəndəsi Fərman Qurbanlı, DTX-nin nümayəndəsi Günel Hüseynova və RİSK elmi-istehsalat şirkətinin icraçı direktoru Rüfət Quliyev iştirak edirdilər.***






Fərman Qurbanlı bildirdi ki, Azərbaycan 1991-ci ildə dövlət müstəqilliyini əldə etdiyi gündən ötən müddət ərzində mürəkkəb, eyni zamanda uğurlu bir inkişaf yolu keçmişdir. Son dövrlər dünyada baş verən hadisələr, o cümlədən siyasi və iqtisadi böhranlar Azərbaycana da müəyyən qədər təsir etsə də, müstəqillik dövründə əsası ümumilli lider Heydər Əliyev tərəfindən qoyulmuş genişmiqyaslı islahatlar prosesi ölkədə davamlı sosial-iqtisadi inkişafın təmin olunmasına xidmət etmişdir. Bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən həyata keçirilən uzaqgörən dövlət siyasəti sayəsində ölkəmizin dayanıqlı inkişafı təmin olunmaqla yanaşı vətəndaşların bir çox sosial problemi öz həllini tapmış, əhalinin sosial müdafiəsinin gücləndirilməsi və rifahının daha da yüksəldilməsi istiqamətində mütərəqqi addımlar atılmışdır.

Bu məsələ Azərbaycan Prezidentinin 29 dekabr 2012-ci il tarixli 800 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında da öz əksini tapmışdır. Konsepsiya ölkə həyatının bütün sahələrində inkişaf siyasətinin əsas strateji hədəflərini özündə ehtiva edir və onun həyata keçirilməsi məqsədli dövlət proqramları vasitəsi ilə gerçəkləşdirilir. Bu sənəddə strateji xətt olaraq ön plana çəkilən əsas məqamlardan biri də ölkə əhalisi üçün keyfiyyətli sosial xidmətlər hazırlamaq və bu xidmətlərin müxtəlif sosial qruplar, o cümlədən aztəminatlı ailələr üçün əlçatanlığını təmin etməkdir. Bununla bərabər, əhalinin etibarlı sosial müdafiəsinin təmin edilməsi məqsədilə görülən işlərin davam etdirilməsi və genişləndirilməsi də əsas hədəflərdən biri kimi müəyyən olunub.

Azərbaycan hökumətinin sosial siyasətinin bəyan edilmiş məqsədlərindən biri də vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasıdır. Ölkə əhalisinin sayının artması Azərbaycan vətəndaşlarının mənzilə olan tələbatının təmin olunması məsələsini daha da aktual etmişdir. Xüsusilə az və orta təminatlı vətəndaşların, gənc ailələrin mənzil probleminin həll edilməsi prioritet vəzifə kimi müəyyən edilmişdir.

Bu sahədə həyata keçirilən islahatların davamı olaraq dövlət başçısının 11 aprel 2016-cı il tarixli 858 nömrəli fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi yaradıldı. Bununla yanaşı, ölkədə çoxmənzilli yaşayış binalarının tikintisinə rəvac vermək, vətəndaşların güzəştlə mənzillər əldə etmələrinə şərait yaratmaq, çoxmənzilli yaşayış binalarının tikintisi üçün ayrılan maliyyə vəsaitlərindən səmərəli istifadə edilməsini təşkil və təmin etmək məqsədilə Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılmışdır.

Azərbaycan Prezidentinin "dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 24 noyabr 2016-cı il tarixli 1125 nömrəli fərmanına əsasən Azərbaycan Respublikasının Prezidenti yanında Mənzil İnşaatı Dövlət Agentliyi əsasında Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyi publik hüquqi şəxsi yaradıldı. Ölkə başçısının "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi ilə bağlı bəzi məsələlər haqqında" 7 fevral 2018-ci il tarixli 1819 nömrəli Fərmanına əsasən "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin Nizamnaməsi" təsdiq edilmişdir. Nizamnaməyə əsasən, Agentliyin əsas məqsədi Azərbaycan Respublikası vətəndaşlarının güzəştlə mənzil əldə etmələrinə (uyğun qiymətə mənzil təminatına) şərait yaratmaq üçün onun sərəncamına verilmiş torpaq sahələrində müasir memarlıq üslubunda ekoloji və enerji səmərəliliyi tələblərinə cavab verən yaşayış binalarının və digər tikinti obyektlərinin tikintisini təşkil etmək, habelə həmin torpaq sahələrində ərazi planlaşdırılması, layihələndirmə və memarlıq sahələrində siyasətin həyata keçirilməsində iştirak etmək və fəaliyyəti əlaqələndirməkdir.




Beləliklə, MİDA Bakı şəhərinin müxtəlif ərazilərində, xüsusilə Yasamal və Hövsan qəsəbələrinin ərazisində yeni və keyfiyyətli binaların tikintisənə başlamışdır. İlk layihə kimi Yasamal Yaşayış Kompleksi icra olunmuş, güzəştli mənzil almaq hüququ olan vətəndaşlarımız burada keyfiyyətli və qiymətdə ucuz mənzillər əldə etmişlər. Sonra MİDA Hövsan Yaşayış Kompleksindəki binaları seçimə çıxarmış və yenə də ehtiyac duyan vətəndaşlarımız yeni mənzillərlə təmin olunmuşlar. Sonra başqa layihələr də icra edilmiş və həmin binalardakı mənzillər də aşkarlıq və şəffaflıq şəraitində qanuni sahiblərinə verilmişdir. Bir məsələni xüsusilə qeyd etmək lazımdır ki, bu mənzillər əsasən sosial cəhətdən həssas təbəqəyə verilib. Özü də bazar qiymətlərindən xeyli ucuz və kifayət qədər normal şəraitli mənzillər olmuşdur. Bu isə, təbii ki, dövlətin, xüsusən Prezident İlham Əliyevin sosial cəhətdən həssas insanlarımıza qayğısının nümunəsidir. Bu kateqoriyadan olan insanlarımızın mənzillə təminatı sahəsində yaradılmış şərait onlar tərəfindən həmişə yüksək qiymətləndirilmiş, razılıqla qarşılanmışdır.

F,Qurbanlının sözlərinə görə, sonradan Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində mənzillər onlayn qaydada seçimə çıxarılarkən məsələyə müdaxilə halı olmuşdur. Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyinin növbəti layihəsi – Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində 442 mənzilin 30 mart 2022-ci ildə güzəştlə seçim prosesi yerinə yetirilərkən kənardan müxtəlif şəxslər tərəfindən informasiya texnologiyaları sahəsində xüsusi kompüter proqram təminatlarından istifadə edilməklə mənzillərin seçimi prosesinə müdaxilə halları müşahidə edilmiş, agentliyin şəffaf fəaliyyətinin təcəssümü kimi bu məsələnin araşdırılması üçün aidiyyəti üzrə Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinə müraciət edilmişdir.

Günel Hüseynova qeyd etdi ki, Dövlət Təhlükəsizliyi Xidmətində ilkin araşdırmalar aparılaraq faktla bağlı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci (qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən kompüter sisteminə və kompüter məlumatlarına təkrar qanunsuz müdaxilə) maddələri ilə cinayət işi başlanılmışdır.

Müəyyən edilmişdir ki, Azərbaycan Respublikası vətəndaşları Məmmədov Elçin Elman oğlu, Hacıyev Ruslan Afiz oğlu, Hüseynov Firudin İlqar oğlu, Lətifzadə Yunis İltimas oğlu, Abdullayev Tərlan Tahir oğlu və Məmmədov Cavid Fəhrad oğlu digərləri ilə əlbir olub ayrı-ayrı qruplar halında Mənzil İnşaat Dövlət Agentliyinin "Güzəştli mənzil" informasiya sisteminə daxil olmaq, oradakı məlumatları dəyişmək hüququ olmadan maddi maraq zəminində onlara müraciət etmiş şəxslərin güzəştli şərtlərlə mənzil əldə etmələrini təmin etmək məqsədilə xüsusi kompüter proqram təminatları hazırlayıb və ya uyğunlaşdırıb tətbiq etməklə 30 mart 2022-ci il tarixdə "Güzəştli mənzil" informasiya sisteminə daxil olub və kompüter məlumatlarını qəsdən təkrar dəyişdirib qanunsuz müdaxilə etmiş, bu hərəkətləri ilə hüququ olan vətəndaşların ümumi və bərabər əsaslarla güzəştli mənzil əldə etmək imkanını məhdudlaşdırmaqla və dövlət orqanlarının normal fəaliyyətinə mane olmaqla əhəmiyyətli zərər vurmuşlar.

Həmin şəxslər Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinərək təqsirləndirilən şəxs kimi cinayət məsuliyyətinə cəlb edilmişlər. Cinayət işi üzrə araşdırmalar davam edir. Eyni zamanda, martın 30-da keçirilmiş mənzil seçimi mərhələsinin nəticələri ləğv olunmuşdur.

Hazırda Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikası Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən qeyd olunan məsələlərlə bağlı zəruri hüquqi prosedur tədbirlər yerinə yetirilir. Dövlət tərəfindən güzəştli mənzil seçimi prosesinə kibercinayətlər yolu ilə və ya digər qanunsuz müdaxilə halları və belə əməllər nəticəsində vətəndaşların seçimindən yayındırılmış mənzillərə dair obyektiv hüquqi qiymət verilməsi təmin ediləcəkdir. Araşdırmaların nəticələri barədə ictimaiyyətə əlavə məlumat veriləcəkdir.

F,Qurbanlı əlavə etdi ki, hazırda bu cür halların gələcəkdə təkrarlanmaması üçün güzəştli seçim sistemində təkmilləşdirmə işləri aparılır. Bu işlər başa çatdırıldıqdan sonra mənzillərin növbəti seçimi həyata keçiriləcək. Onun sözlərinə görə, MİDA ümumiyyətlə 8 layihə üzrə işlər aparır. Onlardan 4-ü artıq reallaşdırılıb, qalan 4-ü üzrə işlər davam etdirilir. Artıq işğaldan azad edilmiş Füzuli rayonunda da yeni inşaat layihəsi həyata keçirilir.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 9 iyul.- S.3.